# TARİX FƏDAKARLARI UNUTMUR

Səy və istedad. Əgər heç biri yoxdursa, əzəmət də yoxdur.Birləşdikdə valehedici olurlar. Səy göstərən adi adam səygöstərməyən istedadlı alimdən daha çox şeyə nail olur.Şöhrət ciddi əmək hesabına qazanılır. Asanlıqla başa gələnşey yüksək qiymətləndirilə bilməz. (Baltazar Qrasian)

Belə bir deyim var: "İnsan unutqan varlıqdır". Zənnimizcə, unutqanlıq hissi uca Allah tərəfindən Adəm övladına ona görə verildi ki, çəkdiyi əziyyətləri, itkiləri, ona qarşı olunan haqsızlığı, pisliyi unutsun ki, həyatı yaşanılmayacaq dərəcəyə çatmasın. Bəzən də elə insanları, elə yaxşılıqları unuduruq ki,



bu zaman da biz haqsızlıq etmiş oluruq. İndi isə haqqında yazmaq istədiyimiz şəxs saçını elm yolunda ağardaraq yarım əsrdən çox Azərbaycan ədəbiyyatına və onun inkişafına xidmət edən unudulmuş əlyazmaşünas və vəznşünas alim, mütərcim, şair Seyidov Fazil Mirsadıq oğludur. 83 illik həyatının təxminən yarısını Əlyazmalar İnstitutuna qırılmaz tellərlə bağlayan Fazil müəllimin elmi fəaliyyətitəəssüf ki,tədqiqatçılar tərəfindən araşdırılmamışdır. Tanınmış mənbəşünas alim, tarix elmləri doktoru Tahirə Həsənzadənin söhbətimiz əsnasında Fazil Seyidovu xatırlaması, onun haqqında məqalə yazmağımı istəməsi bu yazının araya-ərsəyə gəlməsinə rəvac verdi. Göstərdiyi təşəbbüsə və verdiyi fikrə görə qədirbilən tarixçi alim Tahirə Həsənzadəyə səmimi qəlbdən təşəkkürlərimi bildirirəm.

Seyidov Fazil Mirsadıq oğlu 1899-cu il dekabrın ayının 24-də Dağıstan vilayətinin Dərbənd şəhərində bağban ailəsində anadan olmuşdur. Atası Mirsadıq Mirhüseyn oğlu əsas etibarilə bağbanlıqla məşğul olmuş, eyni zamanda yaxşı səsi olduğu üçün təziyə günlərində məscidlərdə mərsiyəxanlıq etmişdir. Dağıstanda Sovet hakimiyyəti qurulduqdan sonra atası mərsiyəxanlıqdan əl çəkərək yalnız bağbanlıqla məşğul olmuş, 1931-ci ildə isə qocalığını nəzərə alaraq öz əli ilə əkib becərdiyi bağı Dərbənd torpaq şöbəsinə təhvil vermişdir. 1936-cı ildə vəfat edən atası Mirsadıq ağa Bakının Kürdəxanı kəndinin sayılıb-seçilən ağsaqqallarından idi. Böyük hörmət sahibi olan Mirsadıq ağanın məzarı hazırda ziyarətgahdır.

Fazil Seyidov ibtidai təhsilini Dərbənd şəhərindəki rus-tatar məktəbində aldıqdan sonra Dərbənd şəhər ali məktəbinə daxil olaraq 3-cü sinifə qədər burada oxumuşdur. Sözügedən məktəbdə oxuduğu illərdə günün ikinci yarısını mollaxanada ərəb və fars dillərini öyrənmişdir. 1918-ci ildə Dərbənddə açılmış 8 aylıq müəllimlik kursunu müvəffəqiyyətlə bitirən alim 1919-cu ilin sentyabr ayında Bakı Zükur Darülmüəlliminə (indiki BDU) daxil olmuş, 1923-cü ildə isə təhsilini başa vuraraq "İbtidai məktəb müəllimi" ixtisasına yiyələnmişdir. Buranı bitirdikdən sonra pedaqoji fəaliyyətə başlayaraq Şuşa (Bünyadiyyə məktəbi), Şamaxı (I və II dərəcəli məktəblər) və Ağsu rayonlarında (Kəndli gənclər məktəbi) məktəb müdiri və müəllim vəzifələrində çalışmışdır. "Dağıstan füqərası" qəzetində "Dəli Bəhlul", "F.S.", "F.Seyid", "Şallax", "Molla Nəsrəddin"də "Dərbəndli", "Diri Meyit", "Yeni fikir"də "Məsləhətçi", "Maarif yolu"nda "Dərbəndli müəllif Fazil Seyid", "Kommunist"də "Məlun" imzaları ilə çıxış edən alim 1928-ci ildə yenidən Dağıstana qayıdaraq 1931-ci ilin avqustuna qədər "Dağıstan füqərası" qəzetinin redaksiyasında məsul katib, şöbə müdiri və ədəbi işçi olaraq fəaliyyətini davam etdirmişdir.

1931-34-cü illər ərzində "Azərnəşr"də kütləvi-siyasi şöbənin tərcüməçisi olan Fazil Seyidov ikinci ali təhsilini Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsində almışdır. "Oxumağın yaşı yoxdur" prinsipini əldə rəhbər tutan alim 1943-47-ci illərdə isə üçüncü ali təhsilini alaraq Azərbaycan Dövlət Qiyabi Pedaqoji İnstitutunun ədəbiyyat şöbəsini bitirmişdir.

SSR EA-nın Mərkəzi Kitabxanasının Şərq şöbəsində müdir işləyən Fazil müəllim sonradan kitabxananın həmin şöbəsində olan yazılı abidələrin bütünlükdə Respublika Əlyazmalar Fonduna verilməsi ilə özü də burada - RƏF-də (indiki Əlyazmalar İnstitutu) işləməli oldu. Akademiyanın xüsusi fondunun müdiri olan yorulmaz tədqiqatçı, həmçinin Akademiyanın ictimai həyatında fəal iştirakçı, təşviqatçı və divar qəzetinin redaktoru olmuşdur. Şübhəsiz ki, onun bu səyləri kölgədə qala bilməzdi. Belə ki, xidmətlərinə görə "Qafqazı müdafiə uğrunda", "Fədakar əməyə görə" (1946) və "V.İ.Leninin anadan olmasının 100 illiyi münasibəti ilə əməkdə fərqlənmə" (1970) medalları ilə təltif olunmuşdur.

Fazil Seyidov 1944-45-46-cı illərdə "Azərbaycanın görkəmli simaları" və "Azərbaycanın görkəmli xadimləri" adlı silsilə məqalələrində qədim tarixi, dövləti və mədəniyyəti olan Azərbaycanımızın vaxtilə beynəlxalq miqyasda tanınmış, sonraları isə məchul qalmış qabaqcıl adamlarını tanıtmağı özünə borc bilmişdir. Tədqiqatçının bu məqalələri yazmaqda məqsədi azərbaycanlı olmaları ilə fəxr etdiyimiz təbib, astronom, xəttat, musiqiçi və digər bu qəbildən olan mütəfəkkirləri geniş ziyalı təbəqəsi ilə tanış etməkdir. Belə ki, fitri istedadı sayəsində muğamat sahəsində yeniliklər yaradan, zamanına qədər heç kimə bəlli olmayan bir çox çalğı alətlərinin ixtiraçısı, XIV əsrin ən məşhur musiqişünası Marağalı Xacə Əbdülqadir, şeşxanə sazının yaradıcı müəllifi Rizaəddin Şirvani,həmçinin Əbdül Əziz Marağalı, Səfiyəddin Əbdül Mömin, Məhəmməd ibni Əbibəkr Şirvani kimi musiqişünaslar, daha sonra xəlvətiliyin piri-sanisi Şirvanlı Seyid Yəhya (Bakuvi) və xəlvəti şeyxi Dədə Ömər Rövşəninin tələbəsi, xəlvətiyyə təriqətinin "Gülşəni" qolunun banisi Şeyx İbrahim Gülşəni Bərdəi, eləcə də gözəl xətti olduğu üçün "Şirin qələm" ləqəbi verilmiş Azərbaycanlı xəttat Şəmsəddin Məhəmməd Təbrizi və öz zamanının mahir xəttatlarından olan Məhəmməd Hüseyn Təbrizi, azərbaycanlı katib Mirzəbanın oğlu, İbn Sinanın ən qabaqcıl tələbələrindən sayılan, vaxtının çoxunu həll edilməsi çətin olan fəlsəfi məsələlərin şərhinə və izahına həsr edən hikmətşünas alim Əbülhəsən Bəhmənyar, I Şah Abbasın və II Şah İsmayılın kitabxanaçısı, XVI əsrin mahir nəqqaş və şairi Sadiqi bəy Əfşar, XVIII əsrin adlı-sanlı həkimi, "Qanunul-ilaç", "Zadül müsafirin", "Camiul-iləl" kitabçalarının müəllifi Ağa Seyid Əli Təbib Təbrizi, 30 ildən artıq ulduzların hərəkətini tədqiq etmiş, astronomiyadan bəhs edən "Zeyçi" kitabının müəllifi, XII əsrin məşhur münəccimi Fəridəddin Şirvani kimi alimlərin həyat və yaradıcılığı haqqında geniş və müfəssəl məlumat vermişdir.

Fazil Seyidovun ən məhsuldar yaradıcılıq dövrü namizədlik dissertasiyası üzərində çalışdığı illərə təsadüf edir. Belə ki, onun "Azərbaycan məktəbi", "Ədəbiyyat qəzeti", "Azərbaycan dil və ədəbiyyat metodikası" jurnallarında dərc olunan "Klassik şeirimizdə əruz vəzni" və "Azərbaycan şeirində əruz vəzni" adlı silsilə məqalələrində əruz vəzninin tarixi və bəhrlərinə dair nümunəli şərhləri bu gün də öz aktuallığını saxlamaqdadır. 1955-ci ildə uğurla müdafiə etdiyi "Azərbaycan şeirinin vəzni" (əruz və heca) adlı dissertasiya işi Azərbaycan ədəbiyyatşünaslığında xüsusi çəkisi və yeri olan tədqiqatdır.

Fədakar şərqşünas alimin yaradıcılığı çoxcəhətlidir. O, bir tərəfdən yazılı abidələri tədqiq edərək təsvirlər verir, oxunması və anlaşılması çətin olan əlyazmalar üzərində mütəmadi araşdırmalar aparır, digər tərəfdən isə tərcümələr edir və elmi ictimaiyyətdə hər zaman öz əhəmiyyətini qoruyub saxlayan, bütün nəsillər üçün mayak rolunu oynayan kitablar nəşr etdirir. Bu baxımdan Fazil Seyidovun rus dilindən tibbə dair tərcümə etdiyi "Qızılca ilə mübarizə",eyni zamanda XIX əsrin görkəmli şairəsi, təkcə Azərbaycanda deyil, bütün Zaqafqaziyada xeyirxahlığı və mesenatlığı ilə ad-san qazanan Xurşidbanu Natəvana həsr olunan və onun şeirlərinin toplandığı "Xurşidbanu Natəvan", həmçinin 1961-ci ildə Rüstəm Babaxanovla birlikdə qələmə aldığı XVIII əsrin sonu, XIX əsrin I yarısında yaşamış böyük Azərbaycan səyyahı və alimi Hacı Zeynalabidin Şirvaninin (1784-1838) həyatı, yaşadığı dövr və səyahətlərindən bəhs edən "Görkəmli adamların həyatı" adlı kitabları diqqəti cəlb edir.

Dəyərli əlyazmaşünas alim Fazil Seyidovun şairlik bacarığının üzərindən sükutla keçmək ədalətsizlik olardı. Əməkdar Mədəniyyət İşçisi, professor Cənnət Nağıyevanın təbiri ilə desək, "Mir Fazil bütün kədər və sevincini ancaq şeirlə ifadə edirdi". Şeirləri əsasən lirik, satirik və avtobioqrafik məzmuna malik idi. Hətta işlədiyi müəssisə rəhbərlərinə ünvanladığı ərizələri də şeirlə yazmışdı. Məqamı gəlmişkən prof. Cənnət Nağıyevanın gecəsi-gündüzü olmayan alim haqqında yazdığı xatirələrdən sitat gətirmək yerinə düşər. Belə ki, Cənnət xanım yazır: "Fazil Seyidov doktorluq dissertasiyası işi ilə əlaqədar 1963-cü ildə (çox ehtimal ki, dissertasiya mövzusunun təsdiqi üçün yazmışdır) akademik Məmməd Arif Dadaşzadəyə yazdığı:

***Özün arifsən, ey Arif, nəyə lazım izah?***
***Məni Qövsi sarıdan arxayın et, çəkməyim ah.***

- beyti ilə başlanan məktubunun sonunda deyir:

***Olaraq elmə adaxlı nə qədər səbr eləyim,***
***65-də məni ver ələ, şövq ilə gedim.***
***Fazilin də başını sən elə lütfünlə uca,***
***Məni ver Qövsiyə, Qövsi qocadır, mən də qoca.***

52 illik əmək fəaliyyətinin 35 ilini əlyazma işığında keçirən, sözün əsl mənasında iynə ilə gor qazaraq ən çətin əlyazmaları oxuyub onlara həyat verən filosof-şərqşünas alim Fazil Seyidov qocalığını nəzərə alaraq 1976-cı ilin 5 yanvarından öz ərizəsi ilə Əlyazmalar İnstitutundan ayrılmışdır. Bu tarixdən sonra daha 6 il ömür sürən Fazil müəllim 1982-ci ildə vəfat etmiş və vəsiyyətinə uyğun olaraq Kürdəxanı qəbiristanlığında dəfn edilmişdir.

Mənalı həyatının böyük bir hissəsini elm yolunda xərcləyən dəyərli alim, yorulmaz tədqiqatçı Fazil Seyidovun elmi fəaliyyəti bir məqaləyə sığmayacaq qədər dərin və genişdir. Bu yazımızda onun Əlyazmalar İnstitutundakı müstəsna xidmətlərini, həmçinin çoxcəhətli yaradıcılığının əsas istiqamətlərini işıqlandıraraq siz oxucuların diqqətinə çatdırmaq istədik.

***Jalə RÜSTƏMOVA,***
***AMEA Məhəmməd Füzuli adına***
***Əlyazmalar İnstitutu***